# Görkəmli dövlət və elm xadimi Əziz Əliyev Azərbaycan səhiyyəsinin inkişafında mühüm rol oynayıb

❒ ***Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin milli tibb kadrlarının və səhiyyə işçilərinin hazırlanmasında müstəsna xidmətləri olub. Əziz Əliyev dərin zəkası və yüksək təşkilatçılıq məharəti ilə hansı vəzifə olursa-olsun, onun öhdəsindən tez bir zamanda gəlməyi bacarırdı.***



AZƏRTAC xəbər verir ki, bu fikirlər dekabrın 27-də Qubada görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyi münasibətilə təşkil olunan elmi-praktik konfransda səsləndirilib.

Konfransda Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun professor-müəllim heyəti ilə yanaşı, Quba rayonunun tibb işçiləri də iştirak edib.

Quba Müalicə-Diaqnostika Mərkəzində təşkil olunan konfransda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru, professor Nazim Qasımov çıxış edərək, institutun inkişafında və beynəlxalq aləmdə tanıdılmasında Əziz Əliyevin müstəsna rol oynadığını vurğulayıb.

Bildirilib ki, Əziz Əliyev Respublika Xalq Komissarlığının müalicə şöbəsinin rəhbəri, Bakı şəhərinin səhiyyə şöbəsinin rəisi, Azərbaycan Tibb İnstitutunun rektoru vəzifələrində işləyərkən əldə etdiyi təcrübəsini, həmçinin istedadı və sönməz enerjisini səhiyyənin inkişafına, yüksəkixtisaslı həkimlərin yetişdirilməsinə yönəldib. Ə.Əliyev 1959-cu ildən Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru kimi fəaliyyətə başlayıb və ömrünün sonunadək institutun uğurları üçün çalışıb. O dövrdə institut fəaliyyətini genişləndirərək təkcə Azərbaycanda yox, bütün sovet respublikalarında, eləcə də Monqolustan və Bolqarıstanda həkimlərin hazırlanmasında iştirak edirdi. Görkəmli alimin rəhbərliyi ilə institutun kadr bazasında yüksəkixtisaslı mütəxəssislər hazırlanıb, elm adamları yetişdirilib.

Əziz Əliyevin elmi fəaliyyəti də geniş tədqiqat obyektidir. O, 1929-cu ildə aspiranturanı bitirərək namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib. Sonradan Azərbaycan Tibb İnstitutunun terapiya kafedrasında həm assistent, həm də dosent vəzifəsində çalışıb. Həmin dövrdə Azərbaycan dilində həkimlərin və tələbələrin kliniki hazırlığı üçün zəruri olan ilk "Klinik analizlər" dərsliyini nəşr etdirib. 1937-ci ildə Əziz Əliyev "Eksperimental nefrit" doktorluq dissertasiyasını müdafiə edib. Bu iş Azərbaycan təbibləri tərəfindən müdafiə olunmuş ilk doktorluq dissertasiyalarından biri idi. Kəskin nefritin patogenezində allergik nəzəriyyənin əsaslandırılması xəstəliyin müalicəsində spesifik və qeyri-spesifik terapiyanın seçilməsinə imkan verirdi. Elmi əsər SSRİ Elmlər Akademiyasının mükafatına layiq görülüb. Əziz Əliyev 87 elmi əsərin müəllifidir, onlardan 70-i təbabətin ayrı-ayrı sahələrinə, 17-si isə tarixi və siyasi problemlərə aiddir.

Çıxışlarda bildirilib ki, Əziz Əliyevin siyasi xadim kimi fəaliyyətini də xüsusi qeyd etmək lazımdır. O, Azərbaycanda, Dağıstanda, eləcə də Moskvada yüksək dövlət vəzifələrində çalışarkən özünü uzaqgörən, səriştəli və bacarıqlı dövlət xadimi kimi göstərə bilib.

Konfransda qeyd olunub ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb.

Tədbirdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşları məruzələrlə çıxış edib, görkəmli dövlət və elm xadiminin mənalı ömür yolundan, elmi-siyasi fəaliyyətindən danışıblar.

Konfrans işini institut alimlərinin apardıqları elmi-tədqiqat işlərinin nəticələrinə, müxtəlif aktual problemlərə həsr olunmuş məruzələrlə davam etdirib.